

■ Əlizadə Nuri

## DÜNYANI TƏK QOYMADIM...

Nə halaldı, - Toxundu, -
Əlim, oğluma verdim.
Bu yolların tozunu,
Silib, oğluma verdim.

Neyləyəcək, qar mənə, -
Ocağa oxşar mənə?
Aldılar bir şar mənə,
Gülüb, oğluma verdim.

Kim bölüb, nədən bölüb? -
Belə bir vətən bölüb...
Öz adımı tən bölüb, -
Bölüb, oğluma verdim.

Dolu ətək qoymadım,
Baldan pətək qoymadım...
...Dünyanı tək qoymadım,
Ölüb oğluma verdim...

## KİTAB

Tanrının dörd kitabı var,
Mənimki beşdən keçib.
Ayılanda gec idi, -
Gördüm iş-işdən keçib...

Məndəki tamaha bax,
Tanrıdan çox yazmışam.
Mən Ondan üzr istəyib,
Yazdığım kitabları,
Oda atdım bu axşam...

...Hər səsdən səda olmur,
Hər pıçıltı səs deyil.
Onun bir kitabına,
Min kitab əvəz deyil.

...Dörd kitabı olsa da,
Adı çoxdu Tanrının.
Bir-bir çəkib adını,
Təzə nəğmə başlaram.
Tanrının hər adına
Bir kitab bağışlaram...

## KƏNDİMİZİN ŞİKƏSTƏSİ

Xəstədi, dərdinə dərman istəyir, -
Haçan bu fərmana qol çəkiləcək?
Bu kəndin gözləri yol çəkir, görən, -
Bəs nə vaxt bu kəndə yol çəkiləcək?

Haçan sevindiyi yadından çıxıb,
Kədərdən gözləri çoxdu bu kəndin.
Haçandı əlləri uzalı qalıb, -
Əlindən tutanı yoxdu bu kəndin.

Köhnə məktəbi də yandı bu yandan,
Yandı gələcəyi bu kəndin bu yaz, -
Kül ilə oynayan kənd uşaqları,
Həm də taleyilə oynayır bir az.

...Xəstədi, dərdinə dərman istəyir,
Haçan bu fərmana qol çəkiləcək.
Bu kəndin gözləri yol çəkir, axı,
Bəs nə vaxt bu kəndə yol çəkiləcək?!

## GÖZƏLLƏMƏ

Ürəyinin gözəlliyi,
Üzünə vurmuş bu qızın.
Qaranlıqlar öz suyundan,
Gözünə vurmuş bu qızın.

Belə olur qız əlləri? -
Bu əlidi, öz əlləri?!
Dünya bütün gözəlləri,
Dizinə vurmuş bu qızın.

Yağış da öpür çətrini,
Çiçəklər çəkir ətrini...
Dünya nə dadlıdı? - yoxsa, -
Yığıb bütün nemətini,
Duzuna vurmuş bu qızın?

## ÇƏKMİSƏN DÜNYANIN BÜTÜN ƏTRİNİ

Çəkmisən dünyanın bütün ətrini, -
Çəkən bir azca da gülə saxlayar!
Məni dağ döşündə bir qız yubadar,
Məni dağ döşündə lalə saxlayar.

Əvvəldən haqlıymış, sonum bu dünya,
Gecə işığıymış - sönüb bu dünya...
...Şələ bağlayana dönüb bu dünya, -
Mən də ki, belində şələ saxlayan...



Şüşəyəm, daş atın, qırılım ona,
Yağışam, qab qoyun, durulum ona...
Yerdə nə var axı vurulum ona,
Məni göy üzüdü hələ saxlayan.

Gedən gedəcəkdir, gələnə sevin,
Tək bir gülən varsa, gülənə sevin!
...Qoy düşüm sənin də tələnə, sevin, -
Eh, sən də yazıqsan, tələ saxlayan...

## ŞEİR KİMİ ŞƏKİL

Şəklindən şeir damır,
Oxuyuram şəklini.
Çiçəkli don geymisən,
Qoxlayıram şəklini.

Görən dərd çəkirmi heç, -
Kim araya sədd çəkib?
Bu şəkli bir az Allah,
Bir az təbiət çəkib...

...Girdim eşq meydanına,
Alıb bayraq şəklini.
Bir gün gəlin gətirrəm,
O ağduvaq şəklini.

...Bu həsrətin ipini,
Yavaş-yavaş çəkərsən.
Vaxtın olanda gəlib,
Şəklinə baş çəkərsən...

...Çətin duyalar məni,
Mən də bir cür sirrmişəm.
Mən yeganə şəklimi,
Şəklinlə çəkdirmişəm...

## DAĞLAR

Günəş salamladı uca dağları,
Günəşin üstünə yeridi dağlar.
Bəlkə yağışları namə göndərib, -
Bəlkə də Tanrının yarıdı dağlar?!

Nərgizi, süsəni, nanəsi dəyib,
Bura igidlərin nərəsi dəyib.
Şimşəyin nə qədər zərbəsi dəyib, -
Yenə salamatdı, diridi dağlar.

Lalə bayraqları asdı bağrına,
Çobanın qolları sazdı bağrına, -
Günün istisini basdı bağrına, -
Bu qara qoşulub əridi dağlar...

## BU SUSUZ DÜNYADA BİR MƏN, BİR QAYIQ...

Kədərim yaş olub gözümdə yandı,
İndi hara töküm bu qaynar suyu?
Könlümün qanına qarışıb bu su, -
Bu kədər suyudu, yoxsa nar suyu?

Bir sevda ağlayır aux bu Qan - suda,
Neçə bəy boğulub ah, o Xan suda.
Səni soraqlayır bu axan "su" da,
Gəl "bulaq" üstünə, gəl apar suyu.

Bu sular gəmini yuyub aparır,
Gözümün nəmini yuyub aparır,
Hələ ki, qəmini yuyub aparır, -
Yaxşı ki, bu çayın hələ var suyu...

Sevənlər mürgülü, sevənlər ayıq,
Biz bir-birimizə belə arxayıq...
...bu susuz dəryada bir mən, bir qayıq,
Kim bizə gətirər bir avar suyu?!..

## GÖRDÜM NƏ VAR, SƏNSƏN ELƏ...

Gəldim də tanıdım səni, -
Şükür ki, yarandım, Allah.
Axar suyun aynasına,
Baxıb darandım, Allah.

Gəldim sevdim çiçəkləri,
Gördüm yellər yaz daşıyır.
Gördüm xalı kəpənəklər,
Çiçəklərdən söz daşıyır...

Gördüm nə var, səndən düşüb,
Bətnindən düşübdü hamı.
Sənin yanından gəlmişdi, -
Yellərə verdim yaxamı...

Gördüm nə var, sənsən elə,
Sənə sitayiş elədim.
Qəmini də sevdim sənin, -
Sağ ol, mənə iş eylədin...

Mən bu baxtı oxuyanam,
Sən bu baxtı yazan, Allah.
Yox, yox mən tənha deyiləm, -
Hər gün yanımdasan, Allah!..

## KÖÇ

Təzə evə köçəndə,
o köhnə evin künc-bucağında
boynunu burub qalan
Xatirələrə əl vurma!
...Arı pətəyi kimi olur
köhnə xatirələr,
Pərən-pərən düşür
əl vuran kimi.
Arı kimi olur
köhnə xatirə
Əl vursan sancar adamı...

## BAHAR SEVGİ KİMİ GƏLİB DÜNYAYA...

Biz belə dəyişdik, ya o göy üzü, -
Göydəki baharı görə bilmirik.
Eyni göy üzünə baxırıq ancaq,
Eyni ulduzları görə bilmirik.

Hər çiçək bir azca sevgidi elə,
Bahar sevgi kimi gəlib dünyaya.
Üstündə körpələr oynasın deyə,
Tanrı bu çəməni sərib dünyaya...

Havalar isinir, biz soyuyuruq,
Bəlkə bu baharla biz də tən gedək.
Ya öz könlümüzü verək bahara,
Ya da bu baharın evindən gedək...

## İLAHİ, NƏ GÖZƏL AĞLAYIR BU QIZ...

Neynəsin bu yerdə, bu naşı gözəl?
Hardan tapıb belə bu naqqaşı gözəl?!
Gözəl gözlərində göz yaşı gözəl, -
İlahi, nə gözəl ağlayır bu qız...

O güllər içində bu gül birərdi...
Onun bildiyini gül nə bilərdi?
İlahi, nə gözəl gülə bilərdi, -
İlahi, nə gözəl ağlayır bu qız...

Bu mənim yolumu bağla İlahi,
Bu qəmin köksünü dağla, İlahi...
Sən də yağışını saxla, İlahi, -
İlahi, nə gözəl ağlayır bu qız...

## ŞEİR DİLİ OLASAN

Ölmək üçün doğulduq,
Ölməməyə çalışdıq.
Qarış-qarış böyüyüb,
Adamlara qarışdıq.

Qarış-qarış böyüdük,
Qarış-qarış çoxaldıq.
Çiçək-çiçək azaldıq,
Qarış-qarış çoxaldıq.

Hiss tutdu lampaları, -
Ya dam tapa bilmədik.
Bu qədər adam içində,
Adam tapa bilmədik...

...Şeir gülü olasan,
Səni dərə bir sənəm.
Ya bir qız dodağında
Nəğmə olmaq istərəm...

## PAYIZ SERENADASI

Yenə də xəyal qovur,
Qovur məni bu axşam.
Uşaqlıq şəklim də yox, -
Bilim uşaq olmuşam.

Yenə də yarpaqları,
Külək çırpır tut kimi.
Gözəl kötükdü - sınmış
Ağaca tabut kimi.

Bir səs düşdü ovcuma,
Göy üzünün damından.
Yenə də yağış düşür
Gecənin yanağından...